Azərbaycan.- 2021.- 25 aprel. S. 7.



# Kağızın və kitabın vətəni



**Barıtın Çində icadı hamıya məlumdur. Ancaq çox adam bilmir ki, kağızın ixtirası da qədim Çində baş verib.**

Bu ixtiranı eramızdan əvvəl 105-ci ildə edən Tsay Lun kağızı tut ağacının lifləri, ağacın külü və çətənə lifini qarışdırmaqla əldə edib. Çinlilər kağızın hazırlanmasının sirrini uzun müddət gizli saxlayıblar.

Ərəblərin sayəsində VIII-IX əsrlərdə kağızdan geniş istifadə olunmağa başlanılıb. Belə ki, 751-ci ildə Tyan-Şan dağları ətəyində Çin Ordusu ilə ərəb ordusu arasında baş verən döyüşdə ərəblər bir neçə çinli kağız sənətkarını əsir götürərək onlardan kağızın hazırlanma sirrini öyrənirlər. Bundan sonra kağız istehsalı dünyada geniş yayılmağa başlayıb.

İlk kağız fabriki 794-cü ildə Bağdadda Harun ər-Rəşidin vəzirinin oğlu İbn Fəzl tərəfindən yaradılıb. Belə bir fabrik 800-cü ildə Misirdə, 950-ci ildə Əndəlüsdə (İspaniya), 1100-cü ildə Bizansda, 1102-ci ildə Siciliyada, 1228-ci ildə Almaniyada, 1309-cu ildə isə İngiltərədə fəaliyyətə başlayıb.

İlk qədim kitab da Çində 868-ci ildə yaradılıb. Onun müəllifi Bah Tsze olub. 1041-1048-ci illərdə Çin sənətkarı Bi Şen ayrı-ayrı heroqliflərlə kitab çapının əsasını qoyub.

XI əsrdən etibarən ayrı-ayrı heroqliflərdən ibarət yığma şriftlər ixtira edilib. VIII əsrdə Çinin paytaxtında "Paytaxt xəbərləri" ilk gündəlik qəzeti çap olunmağa başlayıb.

Çin dənizçiləri qədimdə ixtira edilmiş kompası XI əsrdə işlədirdilər. Çində II əsrdə seysmoskop, III əsrdə spidometr ixtira edilib.